İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ____________________

Oxu tarixi: ____________________

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

# LİDERİN QƏTL GÜNÜ

NƏCİB MƏHFUZ

Ərəb dilindən tərcümə:

Prof. Əhməd Sami Elaydi

parlaq
İMZALAR

| | |
|---|---|
| Baş redaktor: | Toğrul MUSAYEV |
| Redaktor: | İkram QASIMOV |
| Korrektor: | Turac ELDARQIZI |
| Tərtibatçı: | Zülfi XƏLİLOV |
| Cildin dizayneri: | Aygül ƏLİYEVA |

**نجيب محفوظ**
**يوم قتل الزعيم**

**Nəcib Məhfuz**
**LİDERİN QƏTL GÜNÜ**

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2025, 112 səh.

**© Nəcib Məhfuz / 1983**
**© Parlaq İmzalar MMC / 2025**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 153

ISBN 9952547962

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: "AVE PRİNT" MMC
2025

**Nəcib Məhfuz** 1911-ci il dekabrın 11-də Qahirənin əl-Camaliyyə məhəlləsində anadan olub. 1934-cü ildə Qahirə Universitetinin Fəlsəfə fakültəsini bitirib. Gənc yaşlarından fəlsəfi məqalələr yazsa da, sonradan diqqətini tamamilə bədii nəsrə yönəldib.

Yaradıcılığının ilk dövründə tarixi romanlar yazan müəllif, sonradan Misir cəmiyyətinin real mənzərəsini canlandıran əsərləri ilə şöhrət qazanıb. Onun 1950-ci illərdə işıq üzü görən məşhur "Qahirə trilogiyası" ərəb ədəbiyyatında realizmin zirvəsi hesab olunur.

1988-ci ildə Nəcib Məhfuz "ərəb hekayəçiliyinə gətirdiyi bəşəri çalarlara görə" Nobel Ədəbiyyat Mükafatına layiq görülən ilk ərəb yazıçısı kimi tarixə düşüb. O, əsərlərində Qahirənin küçələrini və adi insanların taleyini böyük ustalıqla təsvir edib.

Nəcib Məhfuz 2006-cı il avqustun 30-da Qahirədə vəfat edib.

**Əhməd Sami Elaydi** 1979-cu il aprelin 6-da Misir Ərəb Respublikasının Qahirə şəhərində anadan olub. 2006-cı ildə Qahirədəki Eyn əş-Şəms Universitetinin Ədəbiyyat fakültəsinin Türk dili və ədəbiyyatı bölümünü bitirib. Bir müddət təhsil aldığı universitetdə müəllim işləyib. Daha sonra Bakı Dövlət Universitetinin Müasir Azərbaycan ədəbiyyatı kafedrasının doktoranturasını bitirib. Misir Ərəb Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət attaşesi, Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin direktoru vəzifəsində çalışıb.

Əhməd Sami Elaydi "Qaçaq Nəbi" dastanını, Kamal Abdullanın "Yarımçıq əlyazma", Vaqif Sultanlının "İnsan dənizi" romanlarını, "Müasir Azərbaycan hekayələri" antologiyasını ərəb dilinə çevirərək Qahirədə nəşr etdirib.

## Mühtəşimi Zayid

Qısamüddətli yuxu və qalın yorğan altında istiliklə dolu bir intizar. Pəncərədən xəfif işığın sızmasına baxmayaraq, o, qaranlıq otağın zülmətində açıq-aydın görsənir.

...Allahım, sənin izninlə yatıb, sənin izninlə dururam. Hər şeyin sahibi Sənsən. Budur, yeni günümü açan sübh azanı susqunluq dənizində sənin adını hər tərəfə yayır. Allahım, rahat yatağın istiliyindən ayrılmağa, bu uzun qışın kəskin soyuğuna çıxmağa yardım et. Digər yataqda dərin yuxuya gedən sevimli balamı oyatmaq üçün bu qaranlıqda gərək yanına gedim. Dəstəmaz alacağım suyun soyuqluğuna rəğmən, Sənin rəhmətindən aldığım istiliklə qızınıram. Namaz sənə qovuşmaq və səndə yox olmaq deməkdir. Kim Allaha qovuşmağı arzu edərsə, Allah da onu sevər. Məni Allaha yaxınlaşdıracaq bir bilgi əldə etmədiyim gün qoy mənə haram olsun. Nəhayət, yatanları oyatmaq üçün çətinliklə bu dərin düşüncələrdən sıyrılıram. Bu zəhmətkeş ailənin zəngli saatı mənəm. Buna da şükür! Bu yaşda faydalı olmaq Özü də bir şeydir. Yaşlı olduğuma baxmayaraq, Allahın köməyi ilə hələ də

səhhətim yerindədir. Hər səhər İşığı yandıra bilirəm. Oğlumun: "Sabahın xeyir, atam", – deyə səsini eşidincəyədək otağın qapısını taqqıldadaraq: "Fəvvaz" – deyə səslənirəm. Otağıma qayıdaraq oranın da işığını yandırıram və görürəm ki, yorğanla papağı arasından üzünün ancaq bir hissəsi görünən nəvəm dərin yuxuya gedib. Onu dünya rahatlığından Cəhənnəmə çıxarmaqdan başqa çarəm olmadığından şəfqət dolu bir səslə səslənməliyəm: "Ülvan ... ayıl...". Ülvan ayılıb qəhvəyi gözlərini açaraq əsnəyir və gülümsəyərək: "Sabahın xeyir, baba", – deyir. Bundan sonra evdə bir canlanma, səs-küy və vanna otağı ilə yemək otağı arasında hərəkətlənmə meydana gəlir. Gəlinim Hana: "Süfrə hazırdır, əmi", — deyə məni çağıranadək radioda Qurani-Kərimi dinləyirəm. Dünya nemətləri içində mənə qalan ən mühüm şey yeməkdir. Bu dünyada Allahın nemətlərinin sayı-hesabı yoxdur. Allahım, xəstəlik və acizliyi məndən uzaq et. Burada hər kəsin öz dərdi var. Heç kimin müalicəyə sərf edəsi artıq pulu yoxdur. Burada xəstələnənin vay halına. Səhər bizi süfrə arxasına təkcə "ful", ya da "tamia"[1] toplayır. Onlar – "ful" və "tamia" bizim üçün Süveyş kanalından da önəmlidir. Süfrələrimizdən yumurta, pendir, kolbasa və mürəbbənin əskik olmadığı vaxtlar da var idi. Qiymətlər vurubçıxıb kələ-çarxa. Hər şey bahalaşıb. Fəvvazın bədəni

1. "Ful" və "tamia" – lobya və onun üyüdülmüş formasında hazırlanan milli Misir yeməyi. Çox ucuz başa gəldiyindən kasıb təbəqə arasında daha geniş yayılmışdır. – Tərc.

hələ də kökəlməyə meyilli olduğu halda o, yaman çox çörək yeyir. Hana da onun kimidir, lakin o, vaxtından əvvəl yaşlanmağa doğru gedir. Bu gün əlliyaşlı adam altmışyaşlı kimi görsənir. Yemək zamanı Fəvvaz gur səsi ilə dedi:

– Nazirlikdə bir neçə gün səhər-axşam işləyəcəyimizə görə şirkətdəki işə gedə bilməyəcəyəm...

İçimdə bir narahatlıq yarandı. Oğlum Fəvvaz və gəlinim Hana özəl şirkətdə işləyirlər. Onların maaşı, mənim təqaüdüm və Ülvanın aldığı əməkhaqqı həyat tələblərini çətinliklə ödədiyi halda, bu yandan da şirkət onu işdən azad etsə, vəziyyətimiz necə olacaq?!

Ümidlə dedim:

– Bəlkə, günlərin sayı az olar.

Hana dedi:

– Sənin işlərinin bir hissəsini yekunlaşdıra bilməyəcəyimdən onları evə gətirəcəm və şöbə müdirinə də vəziyyətini açıqlayacam.

Fəvvaz qəzəbli halda dedi:

– Yəni belə çıxır ki, mən səhər tezdən gecəyarısınadək işləyəcəm.

Süfrə arxasında problemlərimiz haqqında danışmaqdan heç vaxt xoşum gəlməyib. Amma nə etməli? Ülvan dedi:

– Alya müəllimimin atası Səmih boş vaxtlarında taksi sürərək daha çox pul qazanır.

Atası ondan soruşdu:

– Taksi özünündü?

– Deyəsən.

– Mən hara, maşın almaq hara? Sənin müəlliminin atası zəngindi, yoxsa rüşvətxor?

– Bildiyimə görə, o, hörmətli adamdı.

Dedim:

– Hər halda, insan özünə həmişə şərəfli yol seçməlidi.

Ülvan gülərək dedi:

– Bəlkə, mən də bir gün belə bir yol seçəcəm.

Hana ciddiyyətlə ondan soruşdu:

– Nə edəcəksən?

– Bank yarmaq üçün banda yaradacam.

Fəvvaz sıxılaraq dedi:

– Əlindən başqa nə gəlir ki!!!

Qabların dibləri də siyriləndən sonra Hana onları mətbəxə apardı. Onlar da yubanmadan mənimlə sağollaşıb getdilər. Yenə də həmişəki kimi kiçik mənzildə tək-tənha qaldım.

...Allahım, onlara ruzi-bərəkət qismət et və onları zəmanənin şərindən qoru! Allahım, məni özünə yaxın qullarından et...

Əgər evi bu halda qoysam, axşamadək hər şey bir-birinə qarışar. Yataq otağım və ümumi otağı bacardığım qədər sahmana salıb vaxtımı radio və ya televiziyada verilən Qurani-Kərim, musiqi və xəbərləri dinləyərək keçirəcəyəm. Kaş mənzilimizin dördüncü otağı olaydı, Ülvan da evlənib orada yaşayardı. Hər şe-

yə görə Allaha şükür edirəm, Allahın qədərinə qarşı çıxmaq olmaz.

Deyilənə görə, qıtlıq ilində Allah dostlarından hesab edilən Abu Al Abas Al Mursi Qahirədə bir çörək dükanının qarşısında toplaşan insanları görərək onlara yazığı gəlir. Düşünür ki, kaş üstümdə pulum olardı, bu insanlara yardım edərdim. Birdən cibində bir ağırlıq hiss edir. Əlini cibinə salır və orada bir xeyli pul olduğunu görür. O bu pulla çörək alaraq camaata paylayır. Abu Al Abas Al Mursi gedəndən sonra çörəksatan pulların saxta olduğunu görür. Arxasınca gedərək onu tutur. Allah dostu bu zaman başa düşür ki, onun içinə gələn mərhəmət hissi, əslində, Allahın qədərinə qarşı olan bir etiraz idi. Dərhal Allahdan bağışlanmaq diləyərək tövbə edir və çörəksatan ondan aldığı pulların saxta olmadığını görür! O, həqiqətən də, kamil bir Allah dostu idi.

İnsan dünyadan üz çevirmədən kamil ola bilməz... Yaşımın səksənə yaxınlaşdığına baxmayaraq, hələ də dünya sevgisindən qurtula bilməmişəm. Dünya Allahın mülkü və bizə bəxş etdiyi nemət olduğu halda ondan necə üz döndərim? Dünyanı sevirəm, lakin bu məhəbbət azad və sənə qarşı təqvalı olan bir qulun məhəbbətidir. Allahım, elə isə nəyə görə mənə kamillik qismət etmirsən? Allahın kitabı, peyğəmbərin hədisləri mənim üçün maraqlı olduğu kimi, bu dövlətdə baş verən hadisələr, eyni zamanda yağlı, limonlu, istiotlu full yeməyi də mənə maraqlı gəlir... Allahdan başqa

kim bilə bilər, bəlkə də, gün gələcək, işığın açarına əl vurmadan, sadəcə, bir işarə ilə yandıra biləcəyəm. Ömür yoldaşlarımdan sadəcə biri qalıb. Qocalıq bizi bir-birimizdən ayırdı. Zaman və məkan yalnızlığını hiss edirəm. Artıq bir ildir ki, oxumaqdan gözlərimə tor gəlib. Çox az yazıram və ölümdən də qorxmuram. Əcəl gəldikdə onu könül rahatlığı ilə qarşılayacağam, lakin gəlməmişdən öncə ölümü arzulamayacağam.

Kral Fuad[1] məktəbinin açılış mərasimində iştirak etdikdə müəllimlər adından çıxış etmək üçün çağırılmışdım. Təntənəli bir gün idi. Şagirdlərin: "Yaşasın kral!" nidaları məni coşquya gətirirdi. Nidalar da dəyişdi, mahnılar da... Nəhayət ki, qıtlıq da başladı. Bağlı pəncərə arxasından Nil və ağacları görürəm. Bizim evimiz Nil küçəsində ən qədim və ən kiçik evdir. Yeni binalar arasında bir cırtdandır. Nilin özü də dəyişib, sanki o da mənim kimi təklik və qocalıqdan əziyyət çəkir. Onu qəribə bir hal bürüyüb. Əzəmət və heybətini itirib. Artıq qəzəblənməyi bacarmır.

Nə qədər maşın, nə qədər sərvət, nə qədər kasıblıq və nə qədər bu dünyadan köçən əzizlər... Yağışdan xəbər verən buludlu bir gün. Belə bir gündə Qanatır parkına getmək adama ləzzət verir. Ömür-gün yoldaşları orada yeyib-içir və fonoqraf ətrafında əyləşib vaxt keçirirlər. Onların sevinc dolu gülüşləri açıq havada itib-batır. Onlar toy gecəsi mənim yanımda idilər. Fatimənin üzündən niqabın ilk dəfə qaldırıldığı gecə.

1. Fuad – qırxıncı illərdə Misir krallığı dövründə kral

Sənin qəbrini son ziyarətimdən beş il ötüb. İnsan bu qarışıq izdiham içərisində özü də anlamadan dəli bir sürətlə əcələ doğru yüyürür. Peyğəmbərimiz: "Ey Allahın qulu, bu dünyada bir qərib və yaxud yolçu kimi ol və özünü ölmüş hesab et", – kəlamını düz və yerində demişdir.